# Dayanıqlı inkişafın Azərbaycan modeli

## *Qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra olunur*

**Bütün ölkələrdə sabitlik iqtisadi inkişafın əsas amili hesab edilir və bunu Azərbaycanın nümunəsində aydın görmək olur. Dünyanın müxtəlif bölgələrində siyasi və hərbi böhranın yaşanması, qanlı toqquşmaların və münaqişələrin vüsət alması dünya ictimaiyyətini ciddi narahat etdiyi bir dövrdə Azərbaycanda təhlükəsizlik tədbirləri davam etdirilir, sabitlik və əmin-amanlıq təmin olunur.**

"Bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir". Bu sözləri Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxışında söyləyib. "İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik".

Ölkə başçısı İlham Əliyevin düşünülmüş siyasətinin, gələcəklə bağlı mükəmməl proqramların icrasının və xalq-iqtidar birliyinin nəticəsi olaraq Azərbaycan öz inamlı inkişafını davam etdirir. Ölkədə sabitlik və iqtisadi tərəqqi dünya dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsində də öz sözünü deyir. Azərbaycanın Ermənistandan başqa bütün qonşu ölkələrlə əlaqələri gündən-günə güclənir ki, bu da təhlükəsizlik, sabitlik və iqtisadi inkişaf üçün əsas şərtlərdən biridir.

Prezident İlham Əliyev iqtisadiyyatımızın bundan sonra daha da şaxələndirilməsini və dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsini iqtisadi siyasətimizin əsas hədəfi kimi xüsusi qeyd edir. Şaxələndirmə sahəsində sistemli və kompleks tədbirlərin davam etdirilməsi, iqtisadi və institusional islahatların ardıcıl həyata keçirilməsi iqtisadi artıma və milli iqtisadiyyatın dayanıqlılığının təmin edilməsinə töhfə verir. Dövlətimizin başçısı ölkə qarşısında duran vəzifələrin böyük maliyyə vəsaiti tələb etdiyini vurğulayaraq, növbəti il üçün dövlət büdcəsinin prioritet xərc istiqamətlərini göstərdi. İnflyasiyanın aşağı səviyyəsi fonunda minimum əməkhaqqı və minimum pensiyanın artırılacağının, həssas təbəqə sayılan aztəminatlı vətəndaşlarımızın rifah halının yaxşılaşdırılmasının dövlətin diqqət mərkəzində saxlanılacağının elan edilməsi ölkəmizdə iqtisadi siyasətlə sosial siyasətin bir-biri ilə sıx əlaqələndirildiyini və uzlaşdırıldığını bir daha təsdiq edir. Qeyri-neft sektorunun inkişafında müsbət tendensiya mövcuddur. Bu sektorda ümumi artım 7 faiz olmuşdur. Azərbaycan iqtisadiyyatı son illər ərzində neftin hasilatı sahəsində yaranan qeyri-təbii azalmanı qeyri-neft sektorunun inkişafı ilə tənzimləmişdir. Neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində diqqətə çatdırılmış və onlardan neft hasilatının sabitliyinin təmin edilməsi üçün bu nöqsanların aradan qaldırılması tələb edilmişdir. Son aylar ərzində görülən işlər müsbət nəticələrin əldə olunmasına ümid verir. Hazırda neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işlər aparılır.

Xarici sərmayələrin milli iqtisadiyyata cəlb edilməsi Azərbaycanda iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Ölkəmizdə hökm sürən sabitlik, əlverişli investisiya mühiti, tətbiq edilən təşviq mexanizmləri son nəticədə xarici investisiyaları və onun adambaşına düşən həcmini artırıb, mühüm strateji layihələrin xarici sərmayə hesabına maliyyələşdirilməsini təmin edib. Bununla belə, Prezident İlham Əliyev iqtisadi inkişafın yeni mərhələsində xarici sərmayələrin cəlb olunması üçün tədbirlərin görülməsinə xüsusi önəm verir. Bu, onunla izah olunur ki, hazırda Azərbaycanda həyata keçirilən bütün sosial-iqtisadi tədbirlər, o cümlədən Qarabağın və Şərqi Zəngəzurun bərpası daxili resurslar hesabına maliyyələşdirilir. Digər bir tərəfdən də heç bir yerdən yardım almayan ölkəmiz xarici dövlət borcunun azaldılması xəttini davam etdirir. Xarici borcun azaldılması fonunda xarici sərmayənin milli iqtisadiyyata cəlb edilməsi milli dövlət maraqlarımıza cavab verməklə ən rasional yanaşmadır.

**(davamı 3-cü səhifədə)**




# Dayanıqlı inkişafın Azərbaycan modeli

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidentinin "Dövlət suverenliyimizin tam bərpası investorlara ciddi müsbət siqnal göndərmişdir" fikri yeni dövrün reallığı və çağırışıdır. Ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə xarici investorların Azərbaycana cəlb edilməsi prosesi sürətlənə bilər. Çünki işğala son qoyulması xarici investorlar üçün stabil və təhlükəsiz bir mühit yaradır. Bu, birbaşa olaraq investorların uzunmüddətli layihələrə yönəlmələrinə və onların inamla fəaliyyət göstərmələrinə imkan verir. Ərazilərimizin işğaldan azad olunması ilə investorların fəaliyyəti üçün iqtisadi meydan və geniş imkanlar yaranır. Mədənçilik, kənd təsərrüfatı, enerji sektoru, logistika və turizm kimi sahələr xarici investorlar üçün potensial sahələrdir. Əvvəllər işğal altında olan ərazilərdə indi infrastrukturun yenidən qurulması, təbii resurslarımızın iqtisadi dövriyyəyə cəlb edilməsi, bölgənin strateji əhəmiyyəti Azərbaycanı xarici investorlar üçün cəlbedici məkana çevirir. Hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil, Qarabağın və Şərqi Zəngəzurun bərpası büdcənin digər prioritet xərc istiqamətləri olaraq qeyd edilir. Mövcud reallıqlar və çağırışlar da bu sahələrə üstünlük verilməsini diktə edir.



Prezident İlham Əliyev iqtisadi inkişafın yeni mərhələsində xarici sərmayələrin cəlb olunması üçün tədbirlərin görülməsinə xüsusi önəm verir. Ölkəmizdə son illər ərzində yeni sənaye parkları yaradılıb. Azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir. Digər tərəfdən də heç bir yerdən yardım almayan ölkəmiz xarici dövlət borcunun azaldılması xəttini davam etdirir. İqtisadiyyatın əhəmiyyətli dərəcədə güclənməsi Azərbaycanın hərtərəfli inkişafına, ölkə əhalisinin rifah halının daha da yaxşılaşdırılmasına hədəflənən siyasətə böyük töhfələr verir. Ölkənin iqtisadi imkanları genişləndikcə pensiyalar, maaşlar, sosial müavinətlər də paralel şəkildə artırılır.

Respublikamız Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən hazırlanan İnsan İnkişafı İndeksində öz yerini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa, bu sahədə regionda lider mövqeyə yüksəlməyə nail olub. İqtisadi fəallığın artmasının nəticəsidir ki, ölkəmizdə işsizlik və yoxsulluq 5 faizədək aşağı salınıb, bu da dünya üzrə ən yaxşı göstəricilərdən biridir. Prezident İlham Əliyevin dediyi kimi, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. Yeni iqtisadi şəraitdə isə ölkəmizdə islahatlar daha intensiv şəkildə həyata keçirilir. Qabaqcıl dünya təcrübəsinin, müasir təsərrüfatçılıq metodlarının, yeni təşəbbüslərin tətbiqinə, liberal transformasiyalara uğurlu keçidin təmin olunmasına hesablanan kompleks islahatlar postneft dövründə milli iqtisadiyyatımızın inkişafı üçün münbit zəmin rolunda çıxış edərək onun qarşısında yeni perspektivlər açıb. Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlılığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

## *Qarşıya qoyulan vəzifələr yüksək səviyyədə icra olunur*

Dövlət büdcəsinin xərclərinin istiqamətləri növbəti ildə hökumətin sosial-iqtisadi sahədə atacaq addımları əks etdirən güzgüdür. Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əsas hədəflər əhalinin rifah səviyyəsinin yüksəldilməsi, investisiyaların stimullaşdırılması, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq və abadlıq işlərinin aparılmasına və bu istiqamətdə böyük vəsaitlərin sərf olunmasına baxmayaraq, Azərbaycanın bütün regionlarda iqtisadi inkişafı davamlı olaraq təmin edilir və ölkəmizdə nəzərdə tutulmuş hər hansı bir infrastruktur və ya sosial layihə ixtisara salınmır, ardıcıl şəkildə həyata keçirilir. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edir. Ölkə iqtisadiyyatının pandemiya və qlobal böhranlara yüksək immunitetinin təmin edilməsi və bu böhranların mənfi təsirlərinin minimallaşdırılması məhz möhkəm təməllərə əsaslanan milli iqtisadi inkişaf modelinin dayanıqlılığı ilə izah olunur.



Azərbaycanın qarşıya qoyduğu bütün hədəflərə yüksək səviyyədə nail olur. Hər bir layihənin uğurlu sonluqla başa çatması ölkəmizin malik olduğu imkanların təqdimatı olmaqla yanaşı, növbəti layihələnin gündəmə gətirilməsinə yol açır. Azərbaycanın iştirakçısı və təşəbbüskarı olduğu layihələr dövlətlər, xalqlar arasında körpü rolunu oynayır. Bu layihələr həm iştirakçı, həm də əməkdaşlığın coğrafiyasının genişləndirilməsi əsasında digər dövlətlərin dayanıqlı inkişafını təmin edir.



2024-cü ildə ölkəmizin siyasi nüfuzu və iqtisadi gücü daha da artır. İqtisadi artım tempinin 2023-cü illə müqayisədə daha çox olacağı gözlənilir. Eyni zamanda sosial paketin dərinləşməsi də gözləniləndir. Çünki ehtiyac meyarındakı və yaşayış minimumundakı artımlar nəticə etibarilə sosial yardım məbləğinin artmasına gətirib çıxaracaq. Pensiyalarda da yanvar ayından etibarən artımlar müşahidə olunacaq. Bütün bunlar o anlama gəlir ki, həm də iqtisadi hədəflər, həm də sosial gözləntilər 2024-cü il üçün də prioritetdir. Qarabağ və Şərqi Zəngəzurun qurulmasına 4 milyard manatdan artıq vəsait xərclənəcək. Bu da kifayət qədər ciddi bir rəqəmdir. Ölkəmiz regionda əvvəlki illərdə olduğu kimi, əsas güc mərkəzlərindən biri olacaq, eyni zamanda enerji layihələrini davam etdirəcək, bir çox beynəlxalq mötəbər tədbirlərə ev sahibliyi edəcək.

Fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində vurğulayıb ki, "güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi".

Ekoloji davamlılıq Azərbaycanın inkişaf siyasətinin əsas hissələrindən birini təşkil edir və enerji keçidi Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid gündəliyində mərkəzi mövqedə durur. "Azərbaycanın hədəfi 2026-cı ilə kimi elektrik enerjisi istehsalı sahəsində bərpaolunan enerjinin payını 24 faizə çatdırmaqdır. Bu rəqəmin 2030-cu ilə kimi 30 faiz olması planlaşdırılır. Milli səviyyədə müəyyən edilmiş töhfələrə əsasən Azərbaycan istixana effekti yaradan qaz emissiyalarının həcmini 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. Xüsusi olaraq qeyd etmək lazımdır ki, daxili resurslara əsaslanan güclü iqtisadiyyatın qurulması, iqtisadi müstəqilliyin möhkəmləndirilməsi, milli iqtisadi maraqların qorunması üzrə tədbirlər Prezident İlham Əliyevin müəllifi olduğu iqtisadi inkişaf modeli çərçivəsində bundan sonra da ardıcıl və qətiyyətlə davam etdiriləcək.

**Mustafa KAMAL,**
**"Respublika".**